*Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının milli ordusu - respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 26 iyun 2020-ci il | № 38 (2456) | Qiyməti 30 qəpik


## Azərbaycan Ordusu - 102

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-polkovnik" hərbi rütbəsi**

general-leytenant Kərəm Nəriman oğlu Mustafayevə

**"general-mayor" hərbi rütbəsi**

polkovnik Nizami Ağoğlan oğlu Məmmədova

polkovnik Ramil Əlimran oğlu Əsgərova

**"kontr-admiral" hərbi rütbəsi**

1-ci dərəcəli kapitan Sübhan Kamal oğlu Bəkirova.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2020-ci il.

## Ön xətdə yerləşən bölmələrdə silsilə tədbirlər təşkil edilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən ön xətdə yerləşən bölmələrdə Silahlı Qüvvələr Gününə həsr olunmuş silsilə tədbirlər təşkil edilib.*

Bayram tədbirlərində iştirak edən hərbi qulluqçulara Azərbaycan Ordusunun yaranma tarixi ilə bağlı ətraflı məlumatlar verilib, videoçarxlar nümayiş olunub, viktorina, məntiq, musiqi və idman yarışları keçirilib. Qaliblərə döş nişanları və müxtəlif hədiyyələr təqdim olunub.

Təşkil edilmiş tədbirlər çərçivəsində "Əsgər məktubu" layihəsi keçirilib.

# Prezident İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında iştirak edib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında iştirak edib.*

AZƏRTAC xəbər verir ki, Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov və Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin rəhbər işçiləri ilə operativ müşavirə keçirdi.

Dövlətimizin başçısına hava hücumundan müdafiə sisteminə yeni daxil edilmiş döyüş vasitələri barədə məlumat verildi.

Bildirildi ki, ümumi ərazisi 11 hektardan çox olan hərbi hissənin tikintisinə iki il bundan əvvəl başlanıb və artıq yüksək keyfiyyətlə başa çatdırılıb. Həm zabitlər, həm də əsgərlər üçün yataqxana binaları inşa olunub. Yeməkxana binasında əsgərlərin qidalanması üçün hər cür şərait var. Müasir avadanlıqla təchiz olunan tibb məntəqəsi və digər yardımçı otaqlar yaradılıb.

Prezident İlham Əliyev qərargah binasında yaradılan şəraitlə də tanış oldu.

Qeyd edildi ki, döyüş hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədilə hərbi hissənin ərazisində təlim meydançaları qurulub, ərazi tam abadlaşdırılıb.

Hərbi hissə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev hərbçilərlə görüşdü.

Dövlətimizin başçısı görüşdə nitq söylədi.

- Mən sizi və ordumuzun bütün şəxsi heyətini qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan Silahlı Qüvvələrinə yeni uğurlar, yeni qələbələr arzulayıram.

Bayram günü ərəfəsində yeni hərbi hissənin açılışını qeyd edirik. Mən vəziyyətlə tanış oldum, əvvəlki vəziyyət haqqında da mənə məruzə edildi. Əlbəttə ki, yeni tikilmiş hərbi hissə bütün yüksək standartlara cavab verir.

Son illər ölkəmizdə ordu quruculuğunda, xüsusilə hərbi hissələrin tikintisində Azərbaycan standartları tətbiq edilir və bu standartlar ən yüksək qiymətə layiqdir. Yeniliklər də kifayət qədər çoxdur, xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb. Hətta kazarmalarda kondisionerlər də quraşdırılıb və bu, onu göstərir ki, bu sahədə çox böyük irəliləyiş var. Mənim göstərişimlə bütün hərbi hissələrimiz, şəhərciklərimiz, hərbi bazalarımız faktiki olaraq yenidən qurulur. Son məlumata görə, hərbi hissələrimizin 90 faizində tikinti-bərpa, yenidənqurma işləri demək olar ki, tamamlanmışdır. Hesab edirəm ki, maksimum il yarım-iki il ərzində qalan hərbi hissələr də bu vəziyyətə gətiriləcəkdir. Çünki əsgər və zabitlərin xidmət şəraiti onların döyüş qabiliyyətini artırır və eyni zamanda, imkan verir ki, istənilən vəzifə icra edilsin. Bir də ki, bu, bir daha Azərbaycan dövlətinin öz ordusuna göstərdiyi qayğının təzahürüdür. Ordu quruculuğu bizim üçün prioritet məsələdir. Bu, təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq və belə olan halda ordu ilə bağlı bütün məsələlər ən başlıca vəzifədir.

Onu da bildirməliyəm ki, şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması ilə bərabər, zabitlərin məişət problemləri də həll olunur. Orduda 20 il qüsursuz xidmət edən zabitlərə mənim göstərişimlə dövlət tərəfindən mənzillər verilir və bu proqram icra edilir. Bu, əlbəttə ki, böyük vəsait tələb edir və biz bu vəsaiti ayırırıq. Bu günə qədər 1700 zabit bu proqramla əhatə olunub və onlara yaxşı mənzillər verilibdir. Mən bu yaxınlarda göstəriş verdim ki, bu ilin sonuna qədər əlavə 419 zabitə dövlət tərəfindən mənzillər verilsin. Beləliklə, bu günə qədər olan vəziyyətə görə, bu proqramla əhatə olunan zabitlərin maksimum sayı təmin edilib. Mənə verilən son məlumata görə, təqribən 200-dən bir qədər çox zabit hələ növbədədir. Onların da mənzil problemlərinin həllini tapacaq. Hesab edirəm ki, bu da dünya praktikasında çox nadir hallarda müşahidə olunan mənzərədir. Burada da Azərbaycan ön sıralardadır, yeniliklər göstərir. Çünki Vətənə sədaqətlə və qüsursuz xidmət edən hərbçilər dövlət tərəfindən gərək yüksək təminatla əhatə olunsunlar. Hər bir insanın həyatında mənzil problemi çox önəmli məsələdir, biz onu da həll edirik. Ordumuza göstərilən qayğı bu məsələlərlə bitmir. Hərbçilərin əməkhaqları müntəzəm olaraq qaldırılır. Xüsusilə deyə bilərəm ki, fərqlənmiş hərbçilər mükafatlandırılır. Bu da təbiidir.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında iştirak edib



(Əvvəli 1-ci səhifədə)

Bizim ordumuzun son illər ərzində uğurlu inkişafı göz qabağındadır. Bunu Azərbaycan xalqı bilir, görür. Dünyada orduların reytinqlərini tərtib edən sanballı qurumlar da bunu qeyd edir. Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik. Çünki mənim prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir.

Əlbəttə ki, bütün digər məsələlər də öz həllini tapmalıdır və tapır. Bu gün Azərbaycan dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkədir. Ancaq biz müharibə şəraitində yaşayırıq və eyni zamanda, görürük ki, bu gün dünyada, beynəlxalq müstəvidə güc amili ön plana çıxır. Beynəlxalq hüquq normaları kobudcasına pozulur, onlara əməl edilmir. Əfsuslar olsun ki, bu gün beynəlxalq münasibətlərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir. Biz bunu görürük, müşahidə edirik və buna uyğun öz addımlarımızı atmalıyıq. Çünki biz real vəziyyətlə hesablaşmalıyıq. Beynəlxalq hüququn normalarının pozulması hər bir ölkəni öz hərbi potensialının gücləndirilməsinə vadar etməlidir və biz buna artıq çoxdan başlamışıq. Məhz bunun nəticəsində bu gün Azərbaycan Ordusu çox yüksək peşəkarlığa malikdir. Eyni zamanda, mənim göstərişimlə son illərdə ordumuzun silah-sursat, texnika ilə təchizatı da təşkil edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənib. Bu gün texniki təchizat baxımından Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bizim zirehli texnikamız ən yüksək standartlara cavab verir. Bizim hava hücumuna qarşı müdafiə sistemimiz müasirləşib və bu hərbi hissənin vəzifəsi məhz bundan ibarətdir. Biz bir neçə ölkədən hava hücumuna qarşı ən müasir qurğular əldə etmişik. Onların Azərbaycanda - bizim coğrafiyada bir-birinə inteqrasiya edilməsi də asan məsələ deyil. Çünki bizim hava hücumuna qarşı müdafiə sistemlərimiz, - bu, sirr deyil, bu məlumat artıq açıqlanıb, - həm Rusiya istehsalıdır, Belarus istehsalıdır, İsrail istehsalıdır, eyni zamanda, sovet vaxtından qalan qurğulardır və onlar da modernləşdirilib. Onları bir-birinə elə inteqrasiya etmək, elə yerləşdirmək lazımdır ki, bizim bütün strateji obyektlərimiz havadan qorunsun. Əlbəttə ki, böyük peşəkarlıq və vəsait tələb edir. Bizim vəsaitimiz olmasaydı, bunları haradan alacaqdıq. Bir ölkə varmı ki, bizə pulsuz, müftə nəsə verib. Belə bir ölkə yoxdur, heç vaxt da olmayıb, o cümlədən hərbi sahədə. Nəyi əldə etmişiksə, öz hesabımıza əldə etmişik. Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir.

Hava hücumuna qarşı müasir qurğularımız imkan verir ki, bizim ölkəmiz, o cümlədən strateji obyektlər qorunsun. Bu gün keçirdiyim müşavirədə mənə məruzə edilən məsələlər, o cümlədən cəbhə bölgəsində yaranmış vəziyyət bir daha onu göstərir ki, Azərbaycan strateji üstünlüyə malikdir. Ona görə ordumuzun müasir silah-sursat, texnika ilə təchizatı bundan sonra da davam etdiriləcək. Eyni zamanda, bizim döyüş təyyarələrimiz modernləşdirilib, yüzdən çox hərbi və hərbi-nəqliyyat vertolyotumuz var. Bu da bizim böyük potensialımızdır. Pilotsuz uçuş aparatları ən yüksək səviyyəli istehsalçıların istehsalıdır. Eyni zamanda, Azərbaycanda da bu istehsal təmin edilib.



Yerli istehsala gəldikdə, deyə bilərəm ki, mənim Sərəncamımla 15 il bundan əvvəl yaradılmış Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 1300-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Bizdə heç vaxt hərbi sənaye yox idi. Əgər biz bunu yaratmasaydıq, bu gün böyük problemlərlə üzləşə bilərdik. Amma indi nəinki özümüzü bir çox hərbi təyinatlı məhsullarla təmin edirik, ixrac da edirik və ixrac coğrafiyamız artıb. Biz onlarla ölkəyə hərbi məhsul ixrac edirik. Heç 15 il bundan əvvəl bu haqda fikirləşmək də əbəs idi. Onu kimsə desəydi, bəlkə də inanmazdılar. Amma bu, reallıqdır. Reallığı biz yaradırıq, öz əllərimizlə, öz gücümüzlə, öz iradəmizlə.

Ona görə bütün bu amillər - orduya, zabitə, əsgərə qayğı, məişət, xidmət şəraitinin yaxşılaşdırılması və ordumuzun silah-sursat, texnika ilə təchizatı, bir də əlbəttə ki, döyüş qabiliyyətinin artırılması, bax, bunlar bu əsas amillərdir. Əlbəttə ki, vətənpərvərlik. Ona görə hər bir hərbi hissədə ideoloji tərbiyə yüksək səviyyədə təşkil edilməlidir. Buna bütün rəhbər heyət cavabdehlik daşıyır ki, bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda böyüsünlər, müstəqilliyin qədrini bilsinlər. Bilsinlər ki, müstəqillik bizə asan başa gəlməyib. Bilsinlər ki, bu gün müstəqilliyi qorumaq, onu möhkəmləndirmək bir çox ölkələr üçün böyük məharət tələb edir. İndi dünya xəritəsinə baxmaq kifayətdir ki, görək, adı var, amma faktiki olaraq müstəqil ölkə deyil. Nə üçün? Çünki müstəqil siyasət apara bilmir, başqasının təsiri altındadır. Biz son vaxtlar nə qədər belə ölkə görmüşük ki, özünü qoruya bilmir, faktiki olaraq parçalanır, məhv edilir, insanlar həlak olur, bütün infrastrukturu dağıdılır. Nəyə görə? Çünki özlərini qoruya bilmədilər. Qorumaq üçün gərək həm güc, həm də güclü iradə, inam olsun.

Ona görə mən sizə tapşırıram, bütün hərbi hissələrdə ideoloji vəziyyətə xüsusi əhəmiyyət verilməlidir. Ölkəmizin tarixi - həm qədim tarixi, həm də müasir tarixi ilə əlaqədar hər bir əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır. Çünki mən bunu dəfələrlə demişəm, əfsuslar olsun ki, biz real tariximizi bilməmişik. Günah da bizdə deyil, çünki belə oxumuşuq, bizə belə dərs veriblər. Sovet vaxtında tarix dərslərinin çoxu saxta idi. Azərbaycan xalqının düşmənləri qəhrəman kimi qələmə verilirdi. Quldur 26 Bakı komissarı dəstəsi qəhrəman kimi təqdim edilirdi. O dəstənin başında dayanan cinayətkar erməni millətçiləri qəhrəman kimi təqdim olunurdu. Onların adına rayonlar verilirdi, onlara abidələr qoyulurdu. Azərbaycan xalqının cəlladı Şaumyana abidə qoyulmuşdu, onun adı əbədiləşdirilmişdi. Biz bu tarixi görmüşük. Yenə də günah bizdə deyil. Sovet hakimiyyətinin tarixi bu idi. Müstəqilliyi quranlar düşmən kimi qələmə verilirdi.



Azərbaycan Xalq Cümhuriyyəti antimilli qurum kimi qələmə verilirdi. Ancaq bizim müstəqilliyimizi əlimizdən alanlar, yerli satqınlar qəhrəman kimi qələmə verilirdi. Küçələrə onların adları verilir, onlara abidələr, monumentlər qoyulurdu. Bəlkə də yaddan çıxıb, Sahil bağında 26 Bakı komissarlarına abidə qoyulmuşdu. Mən fikirləşdim ki, bu, nə məsələdir. Bunlar Azərbaycan xalqının qanını axıdıblar, bizi məhv ediblər. Heç şəhərin mərkəzində belə abidəmi olar? O abidə də və o quldur dəstəsinin üzvlərinin abidələri də söküldü və düz də etmişəm. Bütün dini ayinləri gözləmək şərti ilə onların qəbirləri oradan köçürüldü. Ancaq bu, dözülməz idi ki, şəhərimizin mərkəzində Azərbaycan xalqının düşmənlərinə abidə ucaldılıb.

Ona görə mən deyirəm, bizim gənclər bu tarixi bilməlidirlər, qədim tariximizi bilməlidirlər. Bilməlidirlər ki, bugünkü Ermənistan Azərbaycan torpaqlarında formalaşıb, bugünkü Ermənistan xəritəsində coğrafi toponimlərin əsl adlarını bilməlidirlər. Mən gedirəm, haradasa xəritədə sonra dəyişdirilmiş erməni adlarını görürəm. Bütün yerli icra orqanlarına irad tuturam ki, bilmirsiniz, gedin soruşun. Fikirləşin nə yazırsınız, axı, bunun qədim Azərbaycan adı var. Bu, bizim torpağımızdır. Ona görə, bu sahəyə xüsusi diqqət göstərməliyik. Orduda xidmət edən hər bir gənc tərxis olunandan, mülki həyata qayıdandan sonra öz tarixini olduğu kimi bilməlidir.

Əlbəttə ki, əsas döyüş qabiliyyətimizdir. Bütün digər amillər ki, mən qeyd etdim bunun məqsədi var, o da döyüş qabiliyyətini artırmaqdır. Bu istiqamətdə də lazımi addımlar atılır. Həm 2016-cı ilin, həm 2018-ci illərin hərbi əməliyyatları bunu göstərdi. Biz böyük ərazini işğalçılardan azad edə bilmişik. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının bir hissəsini 2016-cı ildə düşməndən azad etmişik və o torpaqlarda Azərbaycan bayrağını ucaltmışıq. Ermənilərin işğal edilmiş torpaqlarda qazdıqları səngərlərə girmişik. Biz indi orada otururuq və orada möhkəmlənmişik. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 min hektardan çox ərazini işğalçılardan azad etmişik və strateji yüksəkliklərə çıxmışıq. Ermənistandan Dağlıq Qarabağa gedən yol bizim gözümüzün qabağından keçir. Ona görə döyüş qabiliyyətinin artırılması istiqamətində əlavə addımlar atılmalıdır ki, biz hər an ərazi bütövlüyümüzü bərpa etmək üçün hazır olaq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və ediləcək, heç kimdə bu haqda şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq. Geosiyasi vəziyyətə daim nəzarət etməliyik. Beynəlxalq müstəvidə dəyişən vəziyyəti düzgün təhlil etməliyik və beynəlxalq aləmdə daha çox dost toplamalıyıq. Biz bunu da edirik. Bu gün beynəlxalq aləmdə Azərbaycanla dostluq edən ölkələrin sayı gündən-günə artır.

İşğal edilmiş torpaqlarda bu gün ermənilər qanunsuz məskunlaşma siyasəti aparır. Bu məsələ ilə əlaqədar mən artıq bir neçə dəfə öz fikirlərimi bildirmişəm, o cümlədən xüsusilə beynəlxalq tədbirlər çərçivəsində. Avropa İttifaqının sonuncu Şərq Tərəfdaşlığı Zirvə görüşü çərçivəsində də bu məsələyə diqqət yetirdim. Biz bütün beynəlxalq təşkilatlarda bu məsələni qaldırırıq və qaldıracağıq. Qanunsuz məskunlaşmaya son qoyulmalıdır. Beynəlxalq ictimaiyyəti buna çağırırıq. Minsk qrupunun həmsədrlərinin bu məsələyə xüsusi diqqət yetirməyini istəyirik ki, bu qanunsuz məskunlaşma dayansın. Çünki Ermənistanın siyasəti bundan ibarətdir. Onlar bizim şəhərlərin adlarını dəyişdiriblər. Əvvəlcə indiki Ermənistan ərazisində, indi isə Dağlıq Qarabağda və ətraf bölgələrdə. Orada yeni dırnaqarası sərhədlər çəkiblər, bizim tarixi keçmişimizi, məscidlərimizi məhv ediblər, tarixi abidələrimizi, torpaqlarımızı erməniləşdirmək istəyirlər. İndi qanunsuz məskunlaşma aparmaq istəyirlər, ancaq onlarda insan resursu olmadığı üçün çətinlik çəkirlər. Amma yenə də diaspor fəaliyyəti nəticəsində buna çalışırlar. Biz buna imkan verməyəcəyik, bunu hər kəs bilsin. Biz münaqişə ilə bağlı mövqeyimizdə möhkəm dayanmışıq və bir addım geri atmayacağıq. Beynəlxalq təşkilatlar indi ərazi bütövlüyü prinsipini xüsusilə qeyd edirlər.

(Ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında iştirak edib

(Əvvəli 2-ci səhifədə)



Avropa İttifaqının sonuncu Şərq Tərəfdaşlığı Zirvə görüşündə çıxış edənlərin, dünya liderlərinin bir çoxları bu məsələyə aydınlıq gətiriblər. Ərazi bütövlüyü prinsipi insanların, xalqların öz müqəddəratını təyin etmək prinsipindən üstündür. Heç kimin bu haqda şübhəsi olmasın. Bütövlükdə Ermənistana və Dağlıq Qarabağ məsələsinə gəldikdə, öz müqəddəratını müəyyənetmə prinsipi işləmir, çünki erməni xalqı öz müqəddəratını bir dəfə müəyyən edib, onların erməni dövləti var, baxmayaraq ki, Azərbaycan torpağında yaradılıb. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına biz heç cür imkan verə bilmərik. Ancaq bir daha demək istəyirəm ki, ərazi bütövlüyü prinsipi bu gün üstünlük təşkil edir. Ona görə bizim mövqeyimiz beynəlxalq hüquq, tarixi ədalət baxımından mükəmməldir. Əlbəttə ki, münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır. Ancaq bayaq qeyd etdiyim kimi, dünyada güc amili ön plana çıxır və biz bu gücü toplamalıyıq, məsələni istənilən yolla həll etməliyik.

Əlbəttə, bu münaqişə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin acı mirasıdır. Çünki məhz onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşüb. Bunu hər kəs bilməlidir. Şuşanın işğalı böyük faciə idi. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. Azərbaycan Xalq Cəbhəsi istənilən yollarla hakimiyyətə gəlmək istəyirdi. O, əvvəlki hakimiyyəti yıxmaq üçün ən çirkin, ən xəyanətkar əməllərə əl atdı, Şuşanı ermənilərə təhvil verdi. Hərbçilər yaxşı bilirlər, Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Onu təhvil verdilər, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Əfsuslar olsun ki, belə də oldu. 1992-ci ilin mayında Şuşa və Laçın işğal edildi, Xalq Cəbhəsinin dəstələri qanunsuz yollarla hakimiyyətə gəldi. Ondan sonra nə etdilər? Ondan sonra ölkəmizi dağıtmağa başladılar. İşğal edilmiş torpaqlar qaldı bir yana, onlar isə talançılıqla, rüşvətxorluqla, oğurluqla məşğul idilər, kabelləri kəsib satırdılar. Kütləvi talançılıq baş alıb gedirdi. Nəticədə bir tərəfdən xalq buna dözmədi, digər tərəfdən 1993-cü ilin aprelində Ermənistan Kəlbəcəri işğal etmişdi. Qanunsuz yollarla hakimiyyətə gəlmiş həmin xəyanətkar Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti Kəlbəcəri Ermənistana təhvil verdi və ondan sonra Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yarandı. Artıq gediş-gəliş və silah-sursat, texnika və təchizat başlamışdı. Ondan sonra nə etdilər? Torpaqları müdafiə etmək əvəzinə qardaş qanını axıtdılar, vətəndaş müharibəsini başladılar, Gəncəni bombaladılar. Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Orada torpaqlar əldən gedir, burada bir-birini qırırlar ki, hakimiyyətə gəlsinlər. Məhz bunun nəticəsində torpaqlarımız işğal altına düşdü. Əgər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bilmək olmur Ermənistan hələ haraya qədər gəlib çıxa bilərdi.



Ona görə bu tarixi hər kəs bilməlidir. Bu işğal Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar və satqın hərəkətlərinin nəticəsidir. Xalq onlara dözmədi, qaçıb getdilər. Buna nə ad vermək olar? Ancaq fərarilik. Prezident fərarilik edib, qaçdı Kələkiyə. Yaxşı, sən Ali Baş Komandansan, ölkə müharibə şəraitindədir. Sən xalqı, dövləti, dövlətçiliyi qorumalısan. Gecə ilə gizlin təyyarəyə minib, uçub Naxçıvana, oradan gedib oturub Kələkidə. Buna nə ad vermək olar? İndi buna bəraət qazandırmaq istəyənlərə üz tutub deyirəm. Nə ad vermək olar buna? Qorxaqlıq, satqınlıq, fərarilik. Başqa ad yoxdur. Hamı da bunu bilməlidir. O birilər nə etdilər? O vaxtkı dövlət katibi indi özünü guya müxalifət adlandırır. Amma o hansı müxalifətdir Azərbaycan xalqı yaxşı bilir. Onların tərbiyəsi, mərifəti, addımları nədən ibarətdir, indi bütün vətəndaşlar internetdə görürlər.

Mən demişəm ki, Azərbaycanda nə qədər pis olsa, onlar üçün o qədər yaxşıdır. Görün, nəyə sevinirlər? Sevinirlər ki, neftin qiyməti 14 dollara düşüb. Buna kim sevinir? Bir Ermənistan, bir də özünü müxalifət adlandıran bu antimilli şura. Neftin qiyməti 14 dollara düşəndə axı, insanlar bundan əziyyət çəkəcək, problemlər yaranacaq, sosial sahədə problemlər yaşana bilər, iqtisadiyyatımız yavaşıyar. Amma bu, onların işinə yarayır, Azərbaycan üçün nə qədər pisdir, onlar üçün o qədər yaxşıdır. Bax, onlar o vaxt da bu prinsiplə yaşayırdılar. Ona görə torpaqlarımızı əldən verdilər. Dövlət katibi o vaxt prezidentlə bir yerdə fərarilik edib. O da getdi gizləndi Kələkidə. Parlamentin sədri fərarilik etdi. Onlar fəraridirlər, satqındırlar, xaindirlər. Hər kəs bunu bilməlidir, heç kim bunu unutmamalıdır.

İndiki şəraitdə biz gücümüzü daha da artırmalıyıq və artırırıq. Ermənistan artıq bir neçə ildir ki, dərin böhran içindədir. Deyə bilərəm ki, Ermənistanın müstəqillik tarixi prinsipcə rüsvayçılıq tarixidir. Çünki indiki iqtidar artıq dəfələrlə bəyan və sübut edib ki, 1998-ci ildən 2018-ci ilə qədər Ermənistana rəhbərlik etmiş şəxslər cinayətkardır, oğrudur, quldurdur. Onların bir çoxu həbs edilib. Məlum olub ki, onların generalları oğrudur, əsgər tuşonkasını oğurlayıb, sonra bazarlarda satdırırdılar. Onların qəhrəmanları cinayətkardır, onların prezidentləri rüşvətxordur. İndiki hakimiyyət bunları açdı-tökdü. Onsuz da biz bunu bilirdik, indi bütün dünya bunu bilir. Yəni, belə çıxır ki, 20 il ərzində bu dırnaqarası müstəqil ölkəyə quldur, rüşvətxor və cinayətkarlar rəhbərlik edib. Bu ölkəyə nə ad vermək olar? Hələ 30 il yoxdur, guya müstəqil ölkə kimi yaşayır, əgər 20 il quldurlar rəhbərlik edibsə, nə ad vermək olar - quldur ölkəsi, cinayətkar ölkəsi. Yaxşı, baxaq görək, 2018-ci ildən bu yana nə baş verib. Guya orada demokratik inqilab olub. Hamısı yalandır. O pullar oraya haradan axıdılıb, biz bunu bilirik, yəqin ki, erməni xalqı da bilir. İndiki hakimiyyət hansı xarici dairələrdən idarə olunur, bunu hər kəs bilir. Sadəcə olaraq, indiki rəhbərlərin tərcümeyi-halına baxın, görün bunlar hansı fondlarda işləyiblər, kimdən pul alıblar. Postsovet məkanında həmin dırnaqarası inqilabları, əslində, qanlı çevrilişləri təşkil edənlər indiki Ermənistan rəhbərlərinin himayədarlarıdır. Onları idarə ediblər və əlbəttə ki, xalqda o çirkin kriminal, xunta rejiminə nifrət böyük idi. Ondan istifadə edib hakimiyyəti zəbt ediblər. Ondan sonra nə baş verir? Ondan sonra hazırda Ermənistanda artıq diktatura hökm sürür. Bu, qaçılmaz faktdır. Onlarda təqribən bir il bundan əvvəl həbsdə olan bir jurnalist axıra qədər aclıq elan edir və ölür. Heç bir beynəlxalq təşkilat, Avropa Şurası, ATƏT-in mətbuat üzrə xidməti bir səs belə çıxarmırlar. Nə üçün? Çünki bilirlər ki, indiki Ermənistanın rəhbərləri kimdir.

Son hadisələr nəyi göstərir? Siyasi opponentlər təqib edilir, həbs olunur, konstitusiyaya qanunsuz dəyişikliklər edilir. Halbuki bu dəyişikliklər ancaq referendumda edilə bilər. Gördülər ki, referendumda keçməyib, parlamentdə dəyişikliklər etdilər. Deməli, hakimiyyət bölgüsü tamamilə pozulub. Qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə-hüquq sahəsi artıq bir adamın əlindədir, bir alətdir və bu diktatura möhkəmlənir. Eyni zamanda, Ermənistanda korrupsiya, talançılıq, rüşvətxorluq, qohumbazlıq kütləvi xarakter alıb. İndi bunu artıq üzə çıxardırlar. Sən demə, qaçaqmalçılıqla baş nazirin özü və onun ailəsi məşğuldur. Siqaret qaçaqmalçılığının başında baş nazir, onun ailəsi, yaxınları dayanır. Ondan sonra zəngin iş adamlarına qarşı cinayət işləri açılır, sonra da onlar məcbur edilir ki, - bir fond yaradıblar, - o pulları fonda köçürsünlər. O fonddan da bu pullar çəkilir, mənimsənilir. Yəni, bu gün Ermənistanın baş naziri və onun yaxın qohumları, ətrafı rüşvətxorluq rəmzinə çevrilib. Baxın, bunların maliyyə imkanları iki il bundan əvvəl nə idi, indi nədir. Ona görə Ermənistanda diktatura hökm sürür və bu, nə qədər belə çox davam edərsə, orada problemlər böhranlı həddə bir o qədər tez çatacaq. Prinsip etibarilə əgər belə obyektiv təhlil aparsan, görərsən ki, orada inkişaf perspektivləri yoxdur. Çünki ölkə özü-özünü saxlaya bilmir, öz sərhədlərini qoruya bilmir, xarici ölkələrin əsgər və zabitləri onların sərhədlərini qoruyur, öz hərbi gücünü təmin edə bilmir, xarici dövlət orada hərbi baza saxlayır, silahlar ala bilmir, xarici dövlət onlara pulsuz silah-sursat verir. İqtisadiyyatı düz qura bilmir, ancaq yalvara-yalvara, diləndilənə kreditlər hesabına yaşayır. İndi Avropa İttifaqından 90 milyon dollar pul dilənir, ondan-bundan dilənir. Deməli, demoqrafik böhran yaşanır, insanlar bu ölkəni tərk edir və təbii azalma gedir. İndi Ermənistanın real əhalisi 2 milyon nəfərdən azdır. Bunu mən bilirəm və Ermənistan rəhbərliyi bilir. Bir də ki, bu ölkə qonşulara - özü də kimə, Türkiyə kimi böyük bir ölkəyə ərazi iddiaları irəli sürür. Dırnaqarası soyqırımı ilə bağlı Türkiyəyə qarşı əsassız ittihamlar irəli sürülür. Heç bir soyqırımı olmamışdır. Ermənilər həm 1918-ci ildə, həm də Xocalıda bizə qarşı soyqırımı törətmişlər. Ona görə belə bir iddia ilə yaşayan ölkənin gələcəyi çox qaranlıqdır.



Biz isə hər sahədə, beynəlxalq müstəvidə güclənirik, güclənməliyik - ölkə daxilində sabitlik, iqtisadi sahədə islahatlar, sosial problemlərin həlli, regionların inkişafı və nəhayət, ordu quruculuğu. Ona görə bu yolla biz gedəcəyik, ordumuzu bundan sonra da gücləndirəcəyik, nə qədər lazımdırsa, orduya o qədər vəsait ayıracağıq. Heç nəyə baxmadan, - neftin qiyməti 14 dollara düşdü, Xalq Cəbhəsinin sevincinə səbəb olan o hadisəni xatırlatmaq istəyirəm, yaxud da ki, qalxdı, fərq etməz, - bizim iqtisadiyyatımız dayanıqlıdır və biz ordumuza nə lazımdırsa, bundan sonra da edəcəyik.

Mən bir daha Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini bu gözəl bayram münasibətilə təbrik etmək istəyirəm. Sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

# Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazir müavinləri Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.*



Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi hörmət və ehtiramla yad edilib.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi Şəhidlər xiyabanını ziyarət edib, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş vətəndaşlarımızın xatirəsinə ucaldılmış Əbədi məşəlin kompleksinin önünə və şəhid məzarlarının üzərinə gül dəstələri qoyub.

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş digər şəxslərin təltif edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Hüseynov Rövşən Səməd oğlu - istefada olan polkovnik-leytenant
Çaybasarlı Elçin Rəhman oğlu - istefada olan mayor
Həsənov Zahir Şamxal oğlu - istefada olan leytenant

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Babayev Elşad Çingiz oğlu - general-leytenant
Ağalarov Fazil Köçəri oğlu - general-mayor
Eminov Məmməd Şəmil oğlu - general-mayor
Xəlilov Elçin Xəzənağa oğlu - general-mayor
Nəsibov Qədir Əşrəf oğlu - general-mayor

**"Vətən uğrunda" medalı ilə**

Əlibəyov Elxan Əlibəy oğlu - general-mayor
Əliverdiyev Vüqar Əfqan oğlu - general-mayor
Rzayev Mübariz Balağa oğlu - general-mayor
Əsgərov Vüqar Feyruz oğlu - polkovnik
Əzimzadə Emin Rauf oğlu - ədliyyə polkovniki
Hüseynov Anar Tofiq oğlu - polkovnik
İslamzadə Namiq Sərəfruz oğlu - polkovnik
Mirzəyev Fikrət Ərəstun oğlu - polkovnik
Ramazanov Nəsif Məmmədəli oğlu - polkovnik
Seyidov İlham İsrayıl oğlu - polkovnik
Şirvanov Mahir Məhərrəm oğlu - polkovnik
Əliyev Ramiq Sirac oğlu - polkovnik-leytenant
Həziyev İbrahim Əsəd oğlu - polkovnik-leytenant
Mirzəyev Anar Mehman oğlu - polkovnik-leytenant
Şıxalıyev Nəsimi Yarməmməd oğlu - polkovnik-leytenant
Zeynalov Zahir Sələmət oğlu - mayor
İsmayılov Ceyhun İsaxan oğlu - kapitan

**"İgidliyə görə" medalı ilə**

Həsənov Ayaz Binyat oğlu - general-leytenant
Cəfərov Zaur Hüseyn oğlu - polkovnik-leytenant
Əliyev Əli Mikayıl oğlu - polkovnik-leytenant
Əmirov Teymur Abbas oğlu - polkovnik-leytenant
Əfkərov Ramin Əhməd oğlu - mayor
Hümbətov Ramal Səlim oğlu - mayor
Mehdiyev Elmar Adil oğlu - mayor
Təhməzov Ceyhun Mirzəbaba oğlu - kapitan
Əliyev İlkin Məhəmməd oğlu - baş gizir

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Əliyev İkram Zülfü oğlu - general-mayor
İsmayılov Rauf Arif oğlu - general-mayor
Mahmudov Hüseyn Pənah oğlu - general-mayor
Babayev Aqşin Azad oğlu - polkovnik
Cəfərov Ceyhun Sədulla oğlu - polkovnik
Cəfərov Rövşən Məmmədcəfər oğlu - tibb xidməti polkovniki
Ərəblinski Şərif Ramazan oğlu - polkovnik
İsayev Vüqar İsa oğlu - ədliyyə polkovniki
Məmmədov İlqar Kazım oğlu - polkovnik
Şirinov Habil Sabir oğlu - istefada olan tibb xidməti polkovnik-leytenantı
Baxşəliyev Mehman Asdan oğlu - istefada olan mayor
İsayev Hənifə Hüseyn oğlu - istefada olan mayor
Sedov Sergey Yakovleviç - istefada olan mayor
Aslanov Ərşad Xasay oğlu - istefada olan baş leytenant
Bayramov Siyavuş Rəhim oğlu - ehtiyatda olan baş gizir
Rəhimova Gülnaz Xasay qızı - baş gizir
Mehdiyev İlqar Mirzə oğlu - istefada olan gizir
Müzəffərov Eynulla Feyzulla oğlu - ehtiyatda olan baş çavuş
Abbasov Basir Ağaəli oğlu - çavuş (ölümündən sonra)
Həsənov Aftandil Məmməd oğlu - ehtiyatda olan kiçik çavuş
Salmanov Məhərrəm Hüseyn oğlu - ehtiyatda olan kiçik çavuş
Həsənov Amil Vəli oğlu - ehtiyatda olan əsgər
Hüseynov Bilal Ətraf oğlu - ehtiyatda olan əsgər
Novruzov Eyvaz Əli oğlu - ehtiyatda olan əsgər
Rəhimov Xudaverən Yaqub oğlu - istefada olan əsgər.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2020-ci il.

## Azərbaycan Ordusunun yaradılmasının 102 illiyi münasibətilə şəxsi heyətə

# Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki əməkdaşlar!

Sizi Azərbaycan Ordusunun yaradılmasının 102-ci ildönümü münasibəti ilə səmimi qəlbdən təbrik edir, Azərbaycanın dövlət müstəqilliyinin qorunması, ərazi bütövlüyünün təmin edilməsi naminə çətin və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Azərbaycan Ordusunda vahid komandanlığın yaradılması və ordumuzun nizami ordu kimi formalaşması ümummilli lider Heydər Əliyevin bu sahədə apardığı siyasətin uğurla davam etdirilməsinin nəticəsidir. Ən müasir texnika və avadanlıqlarla təchiz edilən, aparılan genişmiqyaslı islahatlardan bəhrələnən ordumuz dünyanın ən güclü orduları sırasında layiqli yerini tutub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuzun maddi-texniki təminatı daha da gücləndirilib, ən müasir hərbi şəhərciklər salınıb, zəruri olan bütün hərbi infrastruktur yaradılıb.

2016-cı ilin aprelində Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və 2018-ci ildə Naxçıvanda Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində düşmən işğalında olan torpaqlarımızın bir hissəsinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunması bir daha ordumuzun gücünü nümayiş etdirdi. Azərbaycan Ordusunun yubiley tarixlərində keçirilən möhtəşəm paradlar da ölkəmizin müdafiə qabiliyyətinin, hərbi potensialının daha da güclənməsinə bariz nümunədir.

Şəhid ailələri, müharibə veteranları və əlilləri, eləcə də hər bir hərbi qulluqçu Azərbaycan Prezidentinin diqqət və qayğısı ilə əhatə olunub. Dövlət başçısının fərmanına əsasən orduda xidmət edən hərbi qulluqçular xidməti və daimi mənzillərlə təmin olunur, hərbi qulluqçuların maddi, sosial-məişət, xidməti şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin bundan sonra da uğurla davam etdirilməsinə zəmin yaradılıb.

Bu bayram günündə Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla yad edir, Vətən uğrunda sağlamlığını itirən hərbçilərimizə, onların ailə üzvlərinə, veteranlarımıza səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Əminliklə bildirirəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və Nizamnamələrə daim sadiq qalaraq yeni qələbələr qazanmaq üçün siz döyüş və mənəvi-psixoloji hazırlığınızı, səy və bacarıqlarınızı daha da artıraraq Ali Baş Komandanın döyüş əmrini yerinə yetirəcəksiniz.

Bir daha hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının Müdafiə naziri**

# Yeni inşa olunmuş hərbi hissələrin açılış mərasimləri keçirilib

Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov HHQ-nin yeni inşa edilən hərbi hissəsinin açılış mərasimində iştirak edib və şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub.

General-leytenant R.Tahirov ərazidəki qərargah binası, əsgər yataqxanası, tibb məntəqəsi, yeməkxana, sinif otaqları, mətbəx, ərzaq və əşya anbarı, qazanxana, sıra meydanı, nəzarət-buraxılış məntəqəsi, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Bildirilib ki, yaradılan şərait şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına müsbət təsir göstərəcək, hava məkanımızın daha etibarlı qorunması məqsədilə döyüş növbətçiliyinin keyfiyyətli təşkili və aparılmasını təmin edəcək.



* * *

Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Ramiz Tahirov HHQ-nin cəbhəboyu zonada yerləşən yeni inşa edilən növbəti hərbi hissəsinin açılışı mərasimində iştirak edib.

Şəxsi heyət üçün yaradılan şəraitlə tanış olan general-leytenant R.Tahirov ərazidəki qərargah binası, əsgər yataqxanası, tibb məntəqəsi, yeməkxana, sinif otaqları, ərzaq və əşya anbarı, qazanxana, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Bildirilib ki, yeni hərbi hissədə yaradılan şərait HHQ-nin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına müsbət təsir göstərəcək və döyüş növbətçiliyinin daha da keyfiyyətli aparılmasını təmin edəcək.



* * *

Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini general-leytenant Fuad Məmmədov Mühəndis Qoşunlarının yeni inşa edilmiş mühəndis infrastrukturunun açılışında iştirak edib.

General-leytenant F.Məmmədov hərbi hissədə yeni inşa edilmiş əsgər yataqxanası, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana kompleksi, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Mühəndis Qoşunlarının hissə və bölmələrində döyüş hazırlığının təşkili və aparılması, mühəndis-istehkam bölmələrinin taktiki-xüsusi, xüsusi və texniki hazırlığının yüksək səviyyədə saxlanılması üçün yeni mühəndis şəhərciyi və mühəndis texnikalarının sürücülük sahəsi də hazırlanaraq istifadəyə verilib.

Qeyd olunub ki, yaradılan şərait Mühəndis Qoşunlarının hissə və bölmələrinin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına müsbət təsir göstərəcək.

* * *

Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini general-leytenant Fuad Məmmədov "N" hərbi hissəsinin yeni inşa edilmiş infrastrukturunun açılışında iştirak edib.

Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini hərbi hissədə yeni inşa edilmiş yeməkxana, qarovul şəhərciyi və qarovul evi, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Şəxsi heyətin qidalanması üçün nəzərdə tutulan yeni tikilmiş yeməkxana binası müasir standartlara cavab verən qazanlar, sobalar, soyuducular və digər məişət texnikası, müvafiq mebel və inventarla təchiz olunub. Yeməkxanada soyuducu kamera otaqlarından ibarət ərzaq anbarı var.

Məlumat verilib ki, hərbi hissədə şəxsi heyətin peşəkar hazırlığı və döyüş vərdişlərinin artırılması üçün bütün lazımi şərait yaradılıb.

* * *

Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissəsinin açılışı olub.

Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-mayor Hikmət Mirzəyev ərazidəki qərargah, tədris binası və tibb məntəqəsi ilə tanış olub. Bütün binalar müasir mebel və avadanlıqla tam təmin olunub.

Məlumat verilib ki, xüsusi təyinatlıların peşəkar hazırlığı və döyüş vərdişlərinin artırılması üçün bütün lazımi şərait yaradılıb. Hərbi hissənin maddi-texniki bazasının daha da təkmilləşdirilməsi nəzərdə tutulur.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Azərbaycan Ordusunda "Əsgərdən salam!" aksiyasına start verilib

*Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə reallaşan "Əsgərə salam!" hərbi vətənpərvərlik sosial layihəsinə cavab olaraq Azərbaycan Ordusunda Müdafiə Nazirliyinin təşkilatçılığı ilə "Əsgərdən salam!" aksiyasına start verilib.*

Əlahiddə Ümumqoşun Ordu, qoşun növləri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi qulluqçularının xidmət yerlərindən, xüsusilə cəbhə bölgələrindən ictimaiyyətə, əsgər valideynlərinə, şəhid ailələrinə, müharibə veteranlarına, döyüşlərdə sağlamlığını itirən qazilərimizə, gənclərə müraciətləri təqdim ediləcək və hərbçilərimiz ardıcıl olaraq əsgər salamlarını yetirməklə xalqımızı uğur və nailiyyətləri ilə sevindirəcəklər.

"Əsgərdən salam!" layihəsinin bələdçisi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbanidir.

Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin "Əsgərdən salam!" layihəsi çərçivəsində hazırladığı ilk verilişi ordumuzun yaranmasının 102-ci ildönümü ərəfəsində təqdim edilib. (mod.gov.az)

# "Ən yaxşı tank heyəti" adı uğrunda yarışlar keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 2020-ci il üçün hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunun tank bölmələrinin intensiv döyüş hazırlığı məşğələləri davam edir.

Çöl məşqləri zamanı heyətlərin bacarığı və uyarlığı yoxlanılıb, hərəkətdə olan şərti düşmən hədəflərinə döyüş atışları icra olunub.

Bundan əlavə, şəxsi heyət döyüş maşınlarının idarə olunması üzrə praktiki təlim tapşırıqlarını icra edib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***24 iyun 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı silahlardan da istifadə etməklə atəşkəs rejimini 29 dəfə pozub.

Ermənistan Respublikası Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Novruzlu, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Ağdam rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

***25 iyun 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı silahlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə Moskvada hərbi parad keçirilib



Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə iyunun 24-də Moskvada hərbi parad keçirilib.

AZƏRTAC xəbər verir ki, Rusiya Silahlı Qüvvələrinin Ali Baş Komandanı Vladimir Putin fəxri qonaqlar və veteranlarla birlikdə paradı izləyib.

Tədbirdə Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiyanın Müdafiə naziri Sergey Şoyqunun dəvəti ilə qonaq qismində iştirak edib.

Azərbaycan Ordusunun 75 hərbçisindən ibarət parad heyəti hərbi marşla tribunaların önündən keçib. Paradın aparıcısı xatırladıb ki, Böyük Vətən müharibəsi cəbhələrində 600 mindən çox azərbaycanlı döyüşüb.

Hərbi paradda 14 minə yaxın hərbçi, o cümlədən Rusiya, Azərbaycan, Belarus, Hindistan, Qazaxıstan, Qırğızıstan, Çin, Moldova, Monqolustan, Serbiya, Tacikistan, Türkmənistan, Özbəkistan hərbi qulluqçuları iştirak ediblər. Hərbi paradın fəxri qonaqları arasında Belarus Prezidenti Aleksandr Lukaşenko, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Moldova Prezidenti İqor Dodon, Serbiya Prezidenti Aleksandr Vuçiç, Tacikistan Prezidenti Emomali Rahmon, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xarici ölkələrin Moskvadakı səfirləri, beynəlxalq təşkilatların rəhbərləri və başqaları yer alıblar.



Qızıl meydanın üzərindən 75 təyyarə və helikopter uçub, 200 müasir və müharibə dövrünə aid 18 hərbi texnika tribunalar önündən keçib.

Sonra Rusiya Prezidenti Vladimir Putin və paradın fəxri qonaqları birlikdə Kremlin divarları yaxınlığında naməlum əsgərin məzarı önünə əklil qoyublar.

Xatırladaq ki, Qələbə paradı koronavirus pandemiyasına görə mayın 9-dan iyunun 24-nə keçirilib. 1945-ci ildə Böyük Vətən müharibəsində Qələbədən sonra Qızıl meydanda məşhur parad da iyunun 24-də keçirilmişdi.

Mayın 9-na nəzərdə tutulmuş parada bir çox ölkələrin liderləri dəvət almışdılar. Tədbirdə iştirakı təsdiqlənmiş bir çox digər dövlət və hökumət başçıları koronavirus pandemiyası ilə əlaqədar Moskvaya səfərlərini təxirə salmalı olublar.

Qələbə bayramı münasibətilə günün sonunda - Moskva vaxtı ilə saat 23:00-da Rusiya paytaxtında atəşfəşanlıq keçirilib.

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində növbəti buraxılış mərasimi keçirildi

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində 2020-ci il buraxılışına həsr olunan təntənəli mərasim keçirildi. Kursantların baxışlarında bir arzunun, niyyətin işığı görünür. Bu işıq zabit olmaq istəyinin işığı idi.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və digər rəhbər şəxslər öncə ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət etdilər, önünə gül dəstələri qoydular.

Təhsil ocağının sıra meydanında davam edən mərasimdə Müdafiə Nazirliyinin nümayəndələri, yüksək rütbəli zabitlər, Ali Hərbi Məktəbin şəxsi heyəti iştirak etdilər.

Mərasimin proqramı elan edildikdən sonra ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Nümunəvi hərbi orkestrinin və kursantların ifasında Azərbaycanın Dövlət himni səsləndirildi.

Məktəbin Döyüş Bayrağı təntənəli surətdə meydana gətirildi.

Mərasim Ali Hərbi Məktəbin rəisi general-mayor Fizuli Salahovun Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanova məruzəsi ilə başladı.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov çıxışında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini gənc zabitlərə çatdırdı. Təbrikdə deyilirdi:

"Ordu quruculuğu dövlətimizin və onun rəhbərliyinin diqqət mərkəzindədir. Hərbi büdcəmiz ildən-ilə artır. Son illər müxtəlif təyinatlı təlimlər ordunun gücünün artırılmasında əsaslı əhəmiyyətə malik olub. Hərbi qulluqçuların sosial-məişət şəratinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən müvafiq tədbirlər şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində əsaslı rol oynayır. Buna görə mən Müdafiə Nazirliyinin şəxsi heyəti adından və şəxsən öz adımdan Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin "Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcəkdir" kəlamı bizim fəaliyyət proqramımızdır. 2016-cı ilin Aprel döyüşlərini siz və sizin tabeliyinizdə xidmət edəcək əsgərlər daha böyük qələbə ilə tamamlayacaqsınız.

Təntənəli buraxılış mərasimində Silahlı Qüvvələrimizin təhsil sistemində fəaliyyət göstərənləri, bu gün "leytenant" rütbəsi ilə Silahlı Qüvvələrimizin sıralarına zabit kimi daxil olanların valideynlərini ürəkdən təbrik edirəm və onların övladlarının da Vətənə layiq olacaqlarına əminliyimi bildirirəm. İnanıram ki, gənc zabitlər xalqımıza və dövlətimizə şərəf və vicdanla, nizamnamələrin tələblərini yüksək səviyyədə yerinə yetirməklə xidmət edəcəkdir. Xalq hər birinizdən şəxsi fədakarlıq, mətanət, mərdlik və qəhrəmanlıq gözləyir.

Vətənə müqəddəs xidmətinizdə hər birinizə uğurlar arzulayıram."



General-leytenant Nizam Osmanov daha sonra qeyd etdi ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatların nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bu qüdrətli ordu Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa qadirdir.

"Ölkədə ordunun hazırlıq səviyyəsi ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən ordu quruculuğu siyasətinin tamamilə doğru olduğunu bir daha sübut edir. Azərbaycan Respublikasının Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən həmin siyasət ordunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi, hərbi potensialın gücləndirilməsi, döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması, eləcə də tibb müəssisələrinin müasir tibbi avadanlıqlarla tam təchiz edilməsi, müharibə şəraitində ixtisaslaşdırılmış tibbi yardım göstərilməsi üçün mühüm işlər görülüb. Azərbaycan Ordusu yalnız regionda deyil, bütövlükdə dünyanın ən müasir orduları sırasında yer tutur.

Ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatlar şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə, nizam-intizamın güclənməsinə, sosial bazasının və tədris prosesinin yüksək səviyyədə təşkil olunmasına yönəlmişdir.

Silahlı Qüvvələrdə digər sahələrlə yanaşı, hərbi təhsilin inkişafına da böyük diqqət göstərilir. Xüsusi təyinatlı təhsil müəssisələri uğurlu inkişaf yolu keçərək respublikanın ali təhsil sistemində özünə layiqli yer tutur.

Xüsusi təyinatlı təhsil müəssisələrində görülən işlər nəticəsində tədris prosesi yüksək səviyyəyə gətirilmiş, tədris-maddi baza inkişaf etdirilmiş, hərbi texnika nümunələri, təlim-məşq qurğuları və tibbi tədris avadanlıqları ilə təchiz olunmuş müasir tələblərə cavab verən təlim yerləri və sinif otaqları yaradılmışdır.

Xalqımızın güvənc yeri olan Azərbaycan Ordusunun şəxsi heyəti dövlətimizin - Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması amalıyla xidmət edir, ölkənin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır".

Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi məzunları nizamnamələrin tələblərini yüksək səviyyədə yerinə yetirməyi, xalqımıza, dövlətimizə şərəflə və vicdanla xidmət etməyi tövsiyə etdi və inandığını bildirdi ki, onlar da məsuliyyətlə, Nizamnamələrin tələblərinə tam ciddiyətlə əməl edəcək, Vətənə, Hərbi anda sədaqətlə xidmət edəcəklər.

General-leytenant Nizam Osmanov Silahlı Qüvvələrimizin sıralarına daxil olan gənc zabitlərin hazırlanmasında böyük əməyi olan professor-müəllim heyətinə göstərdikləri qayğıya görə təşəkkür etdi. O, diplom və "leytenant" hərbi rütbəsi almaları münasibətilə kursantları təbrik etdi, onlara Azərbaycanın gələcəyi, ordumuzun, dövlətçiliyimizin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində uğurlar arzuladı.

Sonra Ali Hərbi Məktəbi fərqlənmə ilə bitirən məzunlara diplom və qiymətli hədiyyə təqdim olundu.

Hərbi orkestrin və kursantların ifasında məktəbin marşı ifa edildikdən sonra şəxsi heyət tribunanın önündən keçdi.

Möhtəşəm keçiddi. Bu keçidi düşmənlərimizə bir mesaj bilirəm - biz gəlirik Mübarizlərin, Samidlərin, Muradların, Çingizlərin... davamçıları olaraq gəlirik.

Buraxılış mərasimi başa çatdıqdan sonra gənclər "leytenant" hərbi rütbəsi almaları münasibətilə bir-birlərini təbrik etdilər. Bu, olduqca duyğusal məqamlar idi. Azərbaycanın gələcəyi, ordumuzun inkişafı, dövlətçiliyimizin müdafiəsi və ölkənin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində uğurlar arzuladılar.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Bayramın mübarək, Vətən əsgəri!

*Müasir Azərbaycan Ordusu Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun varisi olsa da, o, nizami ordu kimi Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildikdən sonra yaradıldı, böyük tarixi şəxsiyyət Heydər Əliyev tərəfindən nizami ordu kimi formalaşdırıldı...*

*Həyata keçirilən irimiqyaslı islahatlar, müxtəlif təyinatlı müxtəlif miqyaslı təlimlər Azərbaycan Ordusunun döyüş hazırlığını yüksəltmişdir. Həyata keçirilən eyni mahiyyətli müxtəlif tədbirlər ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının səviyyəsinin yüksəldilməsinə əsaslı təsir göstərmişdir.*

*2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin mayında Günnütdə qazanılan qələbələr ordunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu, ictimaiyyətin orduya güvəncini, inamını artırdı. Aprel döyüşlərinin hərbi dəyərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev belə ifadə edib: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır...". Bu qüruru çağırışçılar da, yeniyetmələr də böyük qürurla yaşayır. O illərin yeniyetmələri indi hərbi xidmətdədir. Ön xətdə, səngərlərdə döyüş növbətçiliyi aparan əsgərlərimizin düşüncələri bu günün çağırışçılarına vətənpərvərlik tövsiyəsidir...*

*Dünyanın ən güclü orduları sırasında olan Azərbaycan Ordusunun şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin döyüş əmrini Böyük Qələbəylə tamamlamağa, torpaqlarımızı işğaldan azad etməyə qadirdir.*

*26 İyun Silahlı Qüvvələr Günüdür.*

*Nümunəvi xidmət edən bir qrup hərbi qulluqçunun bayram ərəfəsində redaksiyamıza ünvanladığı məktubları dərc edirik...*

**"Azərbaycan Ordusu"**



2016-cı ilin Aprel döyüşləri zamanı məktəbliydim.

Mən də digər həmyaşıdlarım kimi 2016-cı ilin Aprel döyüşləri haqqında yazılanları diqqətlə oxumuşdum, verilişlərə maraqla baxmışdım, qürurlanmışdım. Belə bir orduya malik olan Azərbaycanımızla qürurlanmışdım, indi daha böyük arzularla, istəklərlə qürurlanıram. Qazanılan qələbəyə görə onda da qürurlanmışdım, indi də qürurlanıram. Yeniyetmə kimi çağırışçılara həsəd aparanlardan biri də mən idim.

O vaxtlarda sinif yoldaşlarım kimi mən də "Biz qayıdacağıq!" bədii filmində Zakirin yaşadıqlarını yaxşı duyurduq. Yoldaşlarımdan neçəsi hərbçi olmağı qərara aldı. Yəni, biz də Zakir yaşda olanda Vətənin üzləşdiyi müharibəni yaxşı dərk edirdik. Bilirdik ki, bu yaşda bizi oralara buraxmazlar. Ona görə də döyüşləri döyüşənlərə həsəd apara-apara izlədik...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aprel döyüşləri və qazanılan qələbə haqqında dedikləri hamı kimi mənim də düşüncələrimə hopmuşdu, indi də düşüncələrimdədi. Çağırış yaşıma qədər ötüşən illəri bu qürurla yaşamışam, hərbi xidmətə bu qürurla gəlmişəm.

Azərbaycan Ordusunun və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradları mən də böyük maraqla, sevgilərlə, qürurla izlədim. İzlədim və qürurlandım ki, yaxın vaxtlarda belə güclü, ən müasir döyüş texnikalarına malik olan ordunun əsgəri olacam.

Hərbi xidmətə başlayanda Hərbi Nizamnamələrin də, komandirlərimin də, təcrübəli əsgər yoldaşlarımın da dedikləri - tövsiyələri yerinə yetirirdim. Bu, mənim hərbi biliklərimin artırılmasında mühüm rol oynadı. Bu biliklər mənim təlimlərdə də fərqlənməyimi təmin etdi. Fərqlənmək isə xidmətin uğurlu davamı üçün başlıca şərtlərdəndir.

Döyüş növbətçiliyinə gedəndə komandirimdən eşitdiyim bir fikri xatırlayıram: Döyüş növbətçiliyinlə Vətənin təhlükəsizliyini qoruyursan. Bu fikir digər əsgər yoldaşlarım kimi mənim də hərbi xidmətimin mahiyyətidir. Yəni, Vətənimizi qorumağımla qürurlanıram.

Atamın hərbi xidmət xatirələrini dinlədikcə özümü hərbi xidmətdə hesab edirdim. Tanımadığım həmyaşıdlarımla az müddətdə dostlaşdıq, doğmalaşdıq. Hamımız inanırıq ki, atam demişkən, belə doğmalaşma son nəfəsəcəndi. Mən də əsgər yoldaşlarım, dostlarım kimi əsgər dostluğunu yaşadacağam...

Azərbaycan Ordusunun yaranması gününün sevincini yaşayanları, bu sıradan bütün hərbçiləri ürəkdən təbrik edirəm, hər birinə xidmətində uğurlar arzulayıram. İctimaiyyət əmin olsun ki, Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq, torpaqlarımız işğaldan azad ediləcək.

**Əsgər**
**Məhəmmədəli VERDİYEV,**
**"N" hərbi hissəsi**

Silahlı Qüvvələr Günü Vətənini sevən hər bir vətəndaşın qürurla, fəxarətlə, sevinclə bayram etdiyi bir gündür. Müstəqil dövlətimizin 102 illik ordusunun sıralarında xidmət edərək Vətən qarşısında müqəddəs borcu yerinə yetirmək qürurvericidir. Azərbaycan Ordusunun 100-cü ildönümünə həsr olunmuş hərbi paradı böyük sevinc, heyranlıq hissi ilə izləmişdim. Bu gün mən güclü, qüdrətli ordumuzun əsgəriyəm. Ön xətdə torpaqlarımızı inamla müdafiə edirəm, mən də əmrləri məsuliyyətlə yerinə yetirirəm.

Ordumuz dünyanın ən güclü orduları sırasındadır. Ordumuzu nizami ordu kimi formalaşdıran ümummilli lider Heydər Əliyev hələ sovet dönəmində Azərbaycanda hərbi təhsilə böyük diqqət yetirirdi. Çətinliklə də olsa Bakıda Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış ibtidai hərbi məktəbin yaradılmasına nail oldu. Ordumuzun güclənməsində bu məktəbin məzunlarının da böyük xidmətləri olub. Biz əsgərlərdə bu hərbi təhsil ocağında formalaşan bilikli, hazırlıqlı komandirlərimizin sayəsində hərbi biliklərimizi artırırıq. Düşmənin təxribat cəhdlərinin qarşısını qətiyyətlə alırıq. Səngərləri sərhədlərimizə köçürəcəyimiz günün həsrəti ilə xidmət edirik.

Xalqımızın orduya inamı bizim döyüş əzmimizi, qələbə ruhumuzu daha da artırır. Bu əzm, bu ruh 2016-cı ilin Aprel zəfərinin davamına, Böyük Qələbəyə səsləyir...

Azərbaycan əsgəri olaraq üzərimizə düşən məsuliyyəti dərk edir, komandirlərimizin tövsiyələrini dinləyir, keçirilən



dərsləri dərindən mənimsəyirik. Vətəni qoruyanları, Vətəni qoruyanlara güvənənləri bu bayram günü münasibətilə təbrik edirəm.

**Əsgər**
**Rüstəm RƏHİMOV,**
**"N" hərbi hissəsi**

Hərbi xidmətdə olduğum günlər ömür kitabıma böyük hərflərlə yazılıb. Bilirəm ki, bu cür yazılar, bu cür anlar heç vaxt yaddaşlardan silinməyəcək, yada düşəcək, xatırlanacaq.

Mənim üçün də əsgər olmaq böyük şərəfdir. Qoynunda dünyaya göz açdığın torpağın keşiyini çəkmək, onu qorumaq çox müqəddəs bir vəzifədir.

Bu gün əsgərəm, Vətənin keşiyindəyəm, onu qoruyuram. Qoruyuram ki, onun torpağına, daşına düşmən ayağı dəyməsin, xalqımız əmin-amanlıq içində yaşasın.

Ordu sıralarına böyük ovqat və həvəslə gəlmişəm. Bu həvəs, bu ovqat məni hərbi bilikləri daha da dərindən öyrənməyə ruhlandırıb. Xidmətimin ilk günlərindən başlayaraq, həm nəzəri, həm də əməli məşğələlərdə fəal iştirak etməyə çalışıram. Bu fəallığım, bu çalışqanlığım həmişə uğurlar gətirib. Məşğələ prosesində silahların sirlərini öyrəndim, döyüş vərdişlərinə yiyələnirəm. İlk atış çalışması zamanı hədəfləri dəqiq vurub fərqlənənlərdən biri də mən oldum. Qazandığım uğurlar mənə böyük sevinc verdi. Uğurlarımız bizə məşğələ keçən zabitləri də sevindirdi.

Xidmət günlərim arxada qaldıqca daha böyük uğurlar qazanıram. Buna görə də döyüş hazırlığım yüksək səviyyədədir.

Azərbaycan əsgəri olaraq Ali Baş Komandanın əmr və göstərişlərini biz də böyük məsuliyyətlə yerinə yetiririk. Hərbçilərin xidməti vəzifəsi Ali Baş Komandanın döyüş əmrini də yerinə yetirəcək, torpaqlarımızı işğaldan azad edəcəkdir. Əminliklə deyə bilərəm ki, döyüş hazırlığımız yüksək olduğuna görə biz bu tapşırığın, bu vəzifənin öhdəsindən bacarıqla gələcəyik. Valideynlərimizin, doğmalarımızın yanına zəfərlərlə, qələbələrlə qayıdacağıq. Əgər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll edilməsə, biz onu Ali Baş Komandanın əmriylə müharibə yolu ilə azad edəcəyik.

Azərbaycan əsgəri sinəsinə sıxdığı silahı ilə işğalçıları məhv edəcək, düşmən üzərində tarixi qələbə qazanacaq.

Azərbaycan Ordusunun 102-ci ildönümünün sevincini yaşayırıq. Biz də cəsarəti və hünərimizlə ordumuzun qəhrəmanlıq tarixinə yeni-yeni şanlı səhifələr yazacaq əsgərlərin sırasında olmaq istəyirik. Bu əlamətdar gün münasibətilə mən ordumuzun bütün şəxsi heyətini ürəkdən təbrik edir və xidmətlərində uğurlar arzulayıram.

**Əsgər**
**Bahadur ƏMİRASLANOV,**
**"N" hərbi hissəsi**

Hər yaşın özünəməxsus xüsusiyyətləri olur. Yeniyetmə olanda daha tez böyüməyi, daha tez cavanlaşmağı arzulayırdıq. Müharibə bizim də düşüncələrimizi bürümüşdü. 2016-cı ilin aprelində bütün yeniyetmə-



lərin bir təəssüfü eyni çılğınlıqla yaşadığına zərrəcə şübhəm yoxdu. Bunu hərbi xidmətin ilk günlərində əsgər yoldaşlarımla söhbətlərdən də eşitmişdim. Onda qürurla dedik ki, biz Aprel döyüşlərinin iştirakçılarının qazandığı qələbəni Böyük Qələbəylə tamamlayacağıq. Döyüşlərdə, qələbə paradında biz də iştirak etmək istəyirik.

Çağırışçı yaşına çatdıq. Gün gəldi, hərbi xidmətə çağırıldıq...

İndi əsgərəm, ön xətdə xidmət edirəm, döyüş növbətçiliyi aparıram. Gənc əsgər kimi hərbi bilikləri böyük həvəslə, böyük məsuliyyətlə öyrənmişəm. Nizamnamələrin tələblərinə ciddi əməl etmişəm, indi də edirəm. Digər əsgər yoldaşlarım kimi, mən də Hərbi anda sədaqətlə xidmət edirəm. Komandirlərimin və təcrübəli əsgər yoldaşlarımın tövsiyələri də mənim formalaşmağımda əhəmiyyətli oldu...

Asudə vaxtlarımızda bütün söhbətlərimiz Vətəndən olur, qələbədən olur, torpaqlarımızın işğaldan azad edilməsindən olur. Komandirlərimiz deyir ki, bu söhbətlər də döyüş əzmi, qələbə ruhu deməkdi. Biz də Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazırıq. Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Mən bütün hərbi qulluqçuları Silahlı Qüvvələr Günü münasibətilə əsgər yoldaşlarım adından təbrik edirəm. Onları əmin edirəm ki, bundan sonra da məsuliyyətlə xidmət edəcəyik.

**Əsgər**
**Vüsal QULİYEV,**
**"N" hərbi hissəsi**

AZƏRBAYCAN ORDUSU

# Parisdə İkinci Dünya müharibəsində həlak olan azərbaycanlı əsgərlərin xatirəsi yad edilib

*Faşizm üzərində tarixi Qələbənin 75 illiyi münasibətilə Paris yaxınlığında Noye-Sen-Marten şəhərində yerləşən naməlum əsgərin abidəsi qarşısında anım tədbiri keçirilib. Anım tədbirində azərbaycanlı əsgərlərin xatirəsi anılıb və dövlət himnimiz səsləndirilib.*

AZƏRTAC xəbər verir ki, hər il olduğu kimi, bu il də Fransadakı səfirliyimizin diplomatları anım tədbirinə qoşularaq, İkinci Dünya müharibəsində həlak olmuş azərbaycanlı əsgərlərin xatirəsini ehtiramla yad ediblər.

Səfirliyimizin müşavirləri Vaqif Ağayev və Eldar Məmmədov "Naməlum əsgər" abidəsi önünə əklil qoyublar. Bir dəqiqəlik sükutla azərbaycanlı əsgərlərin xatirəsi ehtiramla yad edilib.

Anım tədbirində Noye-Sen-Marten şəhərinin meri, prefekti, eləcə də Rusiya, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Serbiya kimi keçmiş sovet respublikalarının Fransadakı səfirləri iştirak ediblər.

Qeyd edək ki, adətən 9 May - Qələbə Günündə keçirilən anım tədbirinin vaxtı bu il COVID-19 pandemiyasına görə dəyişdirilib.

# Naxçıvanda hərbi qulluqçulara xidməti mənzillər təqdim edilib

Naxçıvan Muxtar Respublikasında ordu, birləşmə və hissələrin döyüş qabiliyyəti və maddi-texniki bazası gücləndirilməklə yanaşı, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır. 26 İyun - Silahlı Qüvvələr Günü ərəfəsində Sədərək rayonundakı 7 mərtəbəli yeni binada hərbçi ailələrinə xidməti mənzillərin təqdim edilməsi növbəti qayğının ifadəsi və xalq-ordu birliyinin təcəssümüdür. "NEQSOL Holdinq" şirkətlər qrupu tərəfindən alınaraq hərbçi ailələrinə hədiyyə edilən mənzillər lazımi məişət şəraitinə malikdir.



Hərbçi ailələrinə xidməti mənzillərin təqdim edilməsi mərasimində Sədərək rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov bildirib ki, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin diqqət və qayğısı ilə geniş quruculuq işləri aparılan rayonda təhsil və səhiyyə müəssisələri, inzibati və yaşayış binaları, sənaye müəssisələri tikilib, məşğulluq təmin edilib, yeni içməli su və kanalizasiya sistemləri qurulub. Bu gün hərbçi ailələrinə yeni xidməti mənzillərin təqdim edilməsi Sədərək rayonunun sosial-iqtisadi inkişafının, məskunlaşmanın artmasının və xalq-ordu birliyinin təcəssümüdür.

"NEQSOL Holdinq" şirkətlər qrupunun nümayəndəsi Samir Mollayev çıxış edərək holdinqin rəhbəri Nəsib Həsənovun anadan olduğu Sədərək rayonunun müdafiəsində ayıq-sayıq dayanan hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılmasında payı olmağından qürurlandığını bildirib. Yeni mənzillərdə yaşayacaq hərbi qulluqçuları və ailə üzvlərini təbrik edərək xidmətlərində uğurlar arzulayıb.

Tədbirdə xidməti mənzillərin orderləri Əlahiddə Ümumqoşun Ordu komandanlığına və açarları hərbi qulluqçulara təqdim edilib.

Əlahiddə Ümumqoşun Ordu komandanının müavini general-mayor Teymur Eyyubov qeyd edib ki, bu gün ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi nəticəsində doğma Naxçıvanımız güclü müdafiə qüdrətinə və müzəffər Əlahiddə Ümumqoşun Orduya malikdir. Sədərək rayonunda yeni torpaq sahələrinin ordumuzun nəzarətinə keçməsi və həmin ərazilərin minalardan təmizlənərək əkin dövriyyəsinə qatılması bunu bir daha təsdiq edir.

Mənzillə təmin olunmuş zabit Ələsgər Mehdiyev bildirib ki, zabit-gizir ailələrinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin öz ordusuna, hərbi qulluqçulara və ailələrinə göstərdiyi qayğının daha bir ifadəsi, dövlət-xalq-ordu birliyinin nəticəsidir. Söz veririk ki, göstərilən diqqət və qayğını öz xidmətimizlə doğruldacağıq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri Vüsalə Əliyeva hərbçi ailələrini təbrik edərək bildirib ki, bu gün hər bir vətəndaşımız rahat, sabitlik şəraitində yaşayır, Ordumuza güvənərək öz gündəlik fəaliyyəti ilə məşğul olur. Dövlətimiz tərəfindən hərbçi ailələrinin rahat yaşayışının təmin olunması istiqamətində zəruri tədbirlər görülür. Sədərək rayonunda xidmət edən hərbçilərin ailələrinə təqdim edilən mənzillər də dövlət-xalq-ordu birliyindən xəbər verir.

Sonra mənzillərə baxış olub. Məlumat verilib ki, 7 mərtəbəli yeni binada hərbçi ailələrinə təqdim edilən mənzillərin hər biri ikiotaqlıdır və ümumi sahəsi 63 və 75 kvadratmetrdir. Burada bütün kommunal-məişət şəraiti yaradılıb, 2 lift, mərkəzləşdirilmiş antena və fərdi istilik sistemləri quraşdırılıb. Mənzillər müasir mebel dəstləri və bütün növ məişət əşyaları ilə tam təmin olunub.

**Baş leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi**

# Narkomaniya cəmiyyəti təhdid edən bəladır

Bəşəriyyətə böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılıb. Mütəxəssislər haqlı olaraq onu xalqların genofonduna sarsıdıcı zərbələr vuran, qarşısının alınması böyük çətinliklər törədən, külli miqdarda xərclər tələb edən son dərəcə neqativ amil kimi dəyərləndirirlər.

Eyni zamanda, cinayətkar dəstələr narkotiklərin qanunsuz dövriyyəsindən külli miqdarda gəlir əldə etmək üçün müxtəlif yollara əl atırlar. Pul qazanmaq naminə insanları, xüsusilə yeniyetmə və gəncləri "ağ ölüm"ə aparan vərdişlərə alışdırırlar.

Narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni şprisdən istifadə edildiyindən narkomanlar QİÇS və başqa sağalmaz, çətin müalicə olunan xəstəliklərə yoluxurlar.

Gənclərinin fiziki və mənəfi sağlamlığı dövlət üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycanda dövlət tərəfindən gənclərə yetərincə qayğı göstərilir, böyüyən nəslin inkişafı, sağlam həyat tərzinin təşkili davamlı olaraq ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə imzaladığı Sərəncamı insanları sağalmaz xəstəliklərə düçar edən bu dəhşətli bəlaya qarşı mübarizə sahəsində olduqca mühüm sənəddir. Sərəncamda bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ayrı-ayrı dövlət strukturlarının, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin, hüquq-mühafizə orqanlarının, təhsil və səhiyyə sisteminin birgə mübarizə aparması, yayılmasının və kütləvi hal almasının qarşısının qətiyyətlə alınması təxirəsalınmaz bir vəzifə kimi qarşıya qoyulub.

Silahlı Qüvvələr cəmiyyətin tərkib hissəsidir. Cəmiyyətin və onun gəncliyinin sağlamlığı isə ordumuzun sağlamlığı deməkdir.

Azərbaycan Ordusuna hərbi xidmətə çağırışda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışdan öncə narkoloji dispanserlərdən sorğu vasitəsilə qeydiyyatda olanların siyahısını götürərək həmin gənclərin Səhiyyə Nazirliyinin müvafiq müəssisələrinə müayinəyə göndərilməsini təmin edir.

Azərbaycan Ordusunda də narkomaniya ilə mübarizə tədbirləri daim diqqət mərkəzində saxlanılır. Xidmətə çağırılanların davranışında, nitqində narkotik aludəçisi olması şübhə doğuranlar təkrar müayinəyə göndərilirlər. Müayinə zamanı şübhələr təsdiq olunduqda onlar məhkəmə-tibbi ekspertiza laboratoriyalarında narkotestlərə cəlb olunurlar. Hərbi hissə və birləşmə komandirlərinə tövsiyə edilmişdir ki, narkomanlıq halları aşkar edilərsə, hərbi qulluqçuların müalicəsi və sağlamlığının bərpasının təmin edilməsi, hərbi xidmətdən tərxis olunduqdan sonra isə profilaktik işlərin həyata keçirilməsi məqsədi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti müvafiq orqanlarla qarşılıqlı məlumat mübadiləsi aparsın.

Şəxsi heyətlə aparılan tərbiyə işinin təşkili zamanı və keçirilən hüquq hazırlığı saatlarında narkomaniyanın yaranması, narkotik vasitələrin və psixotrop maddələrin insan orqanizminə vurduğu zərər, habelə onların cəmiyyətdə törətdiyi fəsadların nəticələri haqqında məlumatlar verilir və xüsusi dərslər keçirilir, sənədli filmlər nümayiş olunur.

Narkomaniya dövlətin və cəmiyyətin qarşısında ağrılı bir problem kimi dayanır və bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, ictimai təşkilatlar, o cümlədən qeyri-hökumət təşkilatlarının birgə fəaliyyəti nəticəsində bütövlükdə cəmiyyəti təhdid edən bu bəla ilə ciddi mübarizə aparılır.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusu bölmələrinin dağlıq ərazidə təlimi keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına əsasən, dağlıq ərazidə hücumun planlaşdırılması və aparılması tapşırıqlarının icrası üzrə Azərbaycan Ordusu bölmələrinin təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimə 800 nəfərədək şəxsi heyət, 100-dək zirehli döyüş və avtomobil texnikası, 40-dək müxtəlif çaplı artilleriya qurğusu, 6 ədəd döyüş və nəqliyyat helikopterləri cəlb olunub.

Təlimin məqsədi komandirlərin dağlıq ərazidə döyüş bacarıqlarının təkmilləşdirilməsi, dağlıq ərazidə hücum döyüşlərinin aparılması zamanı bölmələrin idarəolunması, şəxsi heyətin fiziki dözümlülüyünün yoxlanılması, eləcə də bölmələrin qarşılıqlı fəaliyyətinin təşkili olub.



Həyəcan siqnalı ilə qaldırılan bölmələr ehtiyat rayonunun tutulması, dağ aşırımlarının və hakim yüksəkliklərin ələ keçirilməsi, əsas qüvvələrin hücumu üçün əlverişli şərait yaradılması tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirib.

Təlimin yekun mərhələsində döyüş atışları icra olunub.

Qayıbov Eyyub Qulam oğluna 2000-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 408
Nüsxə 3960